# Qəzet tarixi salnamədir

(Əvvəli 7-ci səhifədə).

nəşr olunmuş, 1962-ci ildə isə Şəkidə nəşr olunan "Lenin bayrağı" qəzeti ilə birləşmişdir.

**Rayon həyatını tarixləşdirənlər**

Qəzet tarixi bir sənəddir. Ta qədimdən ilk yazılar daş üzərinə, dəri üzərinə yazılaraq bu günümüzə qədər gəlib çıxmışsa, kağız üzərinə yazılanlar da, bəzən saralıb rəngini dəyişsə belə, məna dərinliyini qoruyub saxlamış və saxlayır. Qəzet həm də dilimizin bütün çalarlarını əks etdirir. Məhz ona görə də qəzetçilikdə müxtəlif şöbələr, korrektorlar belə fəaliyyət göstərmişdir. Nə qədər senzuralar, qadağalar olsa belə qəzet səhifələrində həyat doğru və düzgün işıqlandırılmış, aid olduğu zamanın yaşayış tərzini, həyat fəaliyyətini əks etdirmişdir. Rayon qəzetləri də mərkəzi mətbuat orqanlarının kiçik formatı kimi fəaliyyət göstərmişdir. Rayon qəzetimizin ilk redaktoru 1937-ci ilin mayınadək Nəriman Həsənov olmuşdur. Nəriman Həsənov may ayında rayonun partiya komitəsinin birinci katibi işləyən Kazım Vəliyev ilə birlikdə dəhşətli represiyyanın qurbanı olmuşdur.

Əhmədağa Hacıyev (1939-1942), Baba Qəhramanov (1944-1948, 1949-1956), Canan Şirinov (1946-1948), Ramazan İsmayılov (1948-1949, 1956-1962, 1966-1987), Əziz Əzizov (1987-2001), Tacəddin Şahdağlı (1993-cü ilin may, iyun ayları), Nadir Atakişiyev (2001-2011), Oqtay Məmmədov (2011-2016), Varis Yaqubov (2016-2020) "Qəbələ" qəzetinin redaktoru vəzifəsində çalışmışlar.

Qəzetimiz fəaliyyət göstərdiyi dövr ərzində dəfələrlə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin və Respublika Jurnalistlər Birliyinin fəxri fərmanı və diplomlarına layiq görülmüşdür.

Qəzetimizin məqsədi ölkəmizin, eləcə də rayonumuzun sosial-mənəvi zənginlik mövzularını, təhsil və s. sahələrdə qazanılan uğurları, rayon əhalisinin həyat və fəaliyyətini əks etdirmək, təbliğ eləməkdir.

Hər bir qəzet işçisi öz yaradıcılığı ilə qəzet səhifələrində, oxucu yaddaşında yaşayır. Redakor başda olmaqla korrektora qədər. Bu gün texnologiya əsri olsa da, qəzet səhifələri çox zaman sosial şəbəkələrdə oxunsa belə hər bir jurnalistin, yazı müəllifinin yazı nümunələri oxucularda özünəməzsus bir maraq dairəsi yaradır.

**Qəzet, yoxsa sosial paylaşım?...**

1980-1990-cı illərdə qəzet oxucu kütləsinin başlıca informasiya vasitələrindən biri idi. "Qəbələ" qəzeti müxtəlif adlarla nəşr olunsa da müntəzəm nəşr olunurdu, qəzet materialları canlı faktlara istinad edilirdi.Qəzet illərlə həftədə 3 dəfə 4000-6000 nüsxə ilə nəşr olunmuş və ölkəmizin sosial-iqtisadi inkişafı ilə bahəm rayonumuzun inkişaf yolunu, qarşılaşılan problem və onların həlli məsələlərini müntəzəm olaraq öz səhifələrində əks etdirmişdir. Belə şəraitdə jurnalistikanın bütün söz təbliği formalarından- oçerk, reportaj, zarisovka, felyeton, xəbərlər, bədii yaradıcılıq və s. növlərindən istifadə olunmuş, zəngin oxucu auditoriyası yaradılmışdır.

İnformasiya-texnologiya əsrinin ən başlıca əhəmiyyətli xüsusiyyəti odur ki, insan əməyi yüngülləşdirilmiş, təbliğat forması genişləndirilmişdir. Sosial şəbəkələrdə oxucu kütləsi çox zaman doğrudüzgün məlumatlardan uzaq düşür, faktlar dəqiq öyrənilmədiyi üçün təkzib edilir. Ağızdan-ağıza eşidilən xəbərlər aid olduğu insanlar tərəfindən bəzən heç də xoş qarşılanmır.

Bu isə bəzi insanlarda mütaliənin zəyifliyindən irəli gəlir. Əgər bu gün kitablar oxunmursa, qəzetlər izlənmirsə göz yaddaşı da zəyifləyir, bu isə beyin yaddaşına öz təsirini göstərir. Şou tipli bəzi proqramlardan bəhrələnmək heç də informasiya texnologiyasının inkişafından düzgün istifadə etmək demək deyil. Hər bir xəbər, hər bir hadisə öz məkanından və aid olduğu mənbədən götürülməlidir. Məhz bizim "Qəbələ" qəzeti sırf faktlar əsasında real xəbərlərə istinadən materiallar hazırlayır. Əgər oxucu qəzetə maraq göstərib oxuyarsa, bu doğruluğun şahidi olar. Qəzetimiz çox kiçik kollektivdən ibarət olsa belə qəzet hər il, əvvəlki illərdən demək olar ki, hər nömrə əvvəlki nömrələrdən daha oxunaqlı materiallarla əhatə olunaraq nəşr olunur. Qəzetimizdə vətənpərvərlik, milli-mənəvi zənginlik başlıca mövzudur. Vətən uğrunda canını belə qurban verənlər qazilər, müharibə iştirakçıları haqqında müntəzəm olaraq materiallar dərc olunur.

Qəzetimiz aid olduğu orqan tərəfindən həmişə dəstəklənir.

"Qəbələ" milli mətbuatımızın 148 illiyi ərəfəsində həm də 90 ilini qeyd edir. Qəzetimizin kollektivi-redaktor Azad Məmmədov, məsul katib- Bibixanım İsayeva, qəzet dizayneri - Rais Rəşidov, fotoqraf - Səhrab Umuyev, kompüter operatoru Ruslan Nəbiyev, qəzetimizin əməkdaşı İlahə Rəhimova - hər birimiz çalışırıq ki, qəzetimiz daha oxunaqlı və maraqlı materaillarla nəşr olunsun. Yalnız istəyimiz oxucu kütləsinin qəzetə maraq dairəsini genişləndirmək, qəzetimizdəki materaillarn köhnəlməməsi, onu oxucularımıza vaxtında çatdırmaq! Bir sözlə, qəzeti tarixi sənəd kimi sabahkı nəsil üçün yaşatmaq!

Mətbuat tarixini tarixin salnaməsində davam etdirmək ümdə vəzifəmizdir.

**BİBİXANIM.**

# Tədbir keçirilmişdir

Qəbələ Rayon Heydər Əliyev Mərkəzinin və Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "22 iyul Milli mətbuat günüdür" adlı tədbir keçirilib. Tədbiri giriş sözü mərkəzin direktor əvəzi Kəmalə Qasımova açaraq 22 iyul Milli Mətbuat Gününün tarixi, yaranma zərurəti, xalqa xidməti, maarifləndirmə işinin təşkili və fəaliyyəti istiqamətində geniş məlumat vermişdir. Tədbirdə çıxış edənlər Azərbaycanda ilk mətbuat nümunəsi olan "Əkinçi" qəzetinin təsisçisi Həsən bəy Zərdabinin xalqın cəhalətdən ayılması, elmə - təhsilə bağlanması yolunda, eləcə də mövhumat-



dan uzaq bir cəmiyyətin qurulmasında göstərdiyi əzm və fədakarlıqlardan danışmış, "Əkinçi" qəzetinin səhifələrində vaxtilə Qəbələ rayonu haqqında da məlumatın dərc olunmasını vurğulamışlar. Sonda Azərbaycan mətbuatının inkişafından bəhs edən videoçarx nümayiş olunmuşdur.

# Redaksiyamızın qonaqları



***22 iyul - Milli Mətbuat Günü və "Qəbələ" qəzetinin 90 illiyi münasibətilə Qəbələ "ASAN" xidmət mərkəzinin nümayəndələri redaksiyamızın qonağı olmuşlar.***

# Əlvida bağça!..

Rayon mədəniyyət mərkəzində ümumrayon uşaq bağçaları uşaqlarının məktəbə yola salınmaları ilə əlaqədar "Əlvida bağça!.." adlı tədbir keçirilmişdir.

Rayonumuzda 23 uşaq bağçası fəaliyyət göstərir. Bu bağçalarda tərbiyə alan uşaqlardan 365 uşaq bu il məktəbə yola salınır.Rayon ziyalılarının, qonaqların iştirak etdiyi tədbirdə uşaqların ifasında səhnəlik və rəqslər nümayiş etdirilmiş, nağıl qəhramanları canlandırılmış, vətənimizi, bayrağımızı, qələbəmizi və təbiətimizi tərənnüm edən şerlər səsləndirilmişdir.

Vətənpərvərlik motivləri ilə keçirilən belə tədbirlərin körpələrin dünyagörüşünün düzgün formalaşdırılmasında müstəsna rolu vardır!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2023-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## Elan

***Cığatelli bələdiyyəsinə boş qalan mühasib ştatı vəzifəsinə işçi tələb olunur.***

## İTMİŞDİR

Qəbələ rayon Bılıx kənd sakini **Nurməmmədov Arif Yavər oğluna** məxsus **şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi,** dövlət qeydiyyat nişanı 36 CB 981 olan Jiquli markalı maşının **texniki pasportu** və həmin maşın üçün verilmiş **etibarnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası MN tərəfindən 2017-ci il tarixdə Qəbələ rayon Nohurqışlaq kənd sakini **Allahverdiyev Arzu Aydın oğluna** verilmiş **Qarabağ Müharibəsi veteranı vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Solquca kənd sakini **Babayev Nəzər Srac oğluna** məxsus Chevrolet NİVA 212300 markalı minik maşınının **36 BJ 306 saylı qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası FHN tərəfindən Qəbələ şəhər sakini **Yusifov Elnur Şahin oğluna** verilmiş **iş vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Vəndam qəsəbə sakini **Mürsəlov Nurlan Qinyaz oğluna** məxsus dövlət qeydiyyat nişanı 36 BL 403 olan FOTON OLLİN markalı maşının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 900